*Y.Bağırlı. Üzeyir Hacıbəylinin həyat yolunda Hadrut-Bakı istiqaməti // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.240-243.*

UOT: 929

**Yusif Bağırlı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, aparıcı elmi işçi,*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: yusif_gunaydin@mail.ru*

# ÜZEYİR HACIBƏYLİNİN HƏYAT YOLUNDA HADRUT-BAKI İSTİQAMƏTİ

*Üzeyir Hacıbəylinin jurnalistika sahəsindəki axtarışları da, onun bəstəkarlıq və müəllimlik sahəsindəki fəaliyyəti kimi məhsuldar və səmərəli olub. Tədqiqatlardan məlumdur ki, Üzeyir bəyin davamlı qəzetçilik fəaliyyəti 1905-ci ilin dekabrının 17-dən, yəni 17 oktyabr manifestinin meydana çıxmasından düz iki ay sonra Bakıda Əhməd bəy Ağaoğlunun təşəbbüsü və rəhbərliyi ilə nəşrə başlayan "İrşad" qəzetindən start götürür. Hərfi mənası "Yol göstərən" olan "İrşad" qəzetinin fəaliyyət göstərdiyi 4 il ərzində 536 sayı çap olunub. Əhməd bəylə yanaşı müxtəlif dövrlərdə M.Ə.Rəsulzadə, N.B.Vəzirov, bir müddət Üzeyir bəyin özü bu mətbu orqanın redaktoru vəzifəsini icra edib.*

***Açar sözlər:*** *Bakı, Qarabağ, erməni, Hadrut, "İrşad", publisistika*

## Giriş

*O dövrün bir çox öncül qələm sahibləri, ziyalıları məmnuniyyətlə bu qəzetlə əməkdaşlıq edib. Əli bəy Hüseynzadə "İrşad"ı, "Həyat" qəzeti ilə birgə "Əkinçi"dən sonra xalqın "ikinci gözü" adlandırırdı. "İrşad"da çalışdığı müddətdə Üzeyir bəy 100-ə yaxın publisistik məqalə və "Ordan-burdan" ümumi başlığı altında əsasən "Filankəs" imzası ilə 200-dən çox felyeton və satirik miniatürlər yazmış, qısa müddət ərzində "İrşad"ın felyetonçusu kimi şöhrət qazanmışdır. "İrşad" qəzetinin nəşri çar senzurası tərəfindən iki dəfə dayandırılmışdır – 1907-ci ildə müvəqqəti, 1908-ci ildə həmişəlik. Maraqlı burasıdır ki, hər iki dəfə bunun səbəbkarı Üzeyir Hacıbəyli olmuşdur. Birinci dəfə "Stolipinin xəyalı",* [*] *ikinci dəfə çar hökumətini "İvan" obrazı ilə ciddi məsxərəyə qoyan "Nağıl" felyetonuna görə.*

Bu fakt öz-özlüyündə gənc publisist Üzeyir Hacıbəylinin siyasi yetkinliyinə, onun tənqid hədəflərini düzgün seçməsinə, həmçinin "İrşad"ın əks etdirdiyi mövzuların coğrafi miqyasının çox geniş olduğuna dəlalət edir, bu mətbu orqanın təkcə Azərbaycanda deyil, həmçinin Rusiyada, İranda və Osmanlı dövlətində baş verən hadisələri əks etdirib, onları düzgün qiymətləndirmək qabiliyyətindən xəbər verir. Doğurdan da, irşadçılar Rusiya və Avropa mətbuatında dərc olunan, Azərbaycan oxucusu üçün də bu və ya digər şəkildə maraq doğuracaq, əhəmiyyət kəsb edə biləcək materialları tərcümə edib, oxucu auditoriyasına çatdırmaqla, dövrün dəyişən geosiyasi mənzərəsinin özəlliklərini qavrayıb, qiymətləndirməyi bacarırdılar. Qeyd etmək lazımdır ki, Üzeyir bəy Zaqafqaziya Müəllimlər Seminariyasını bitirib, Şuşaya

[*] Stalipin P.A. (1862-1918) Rusiyanın o dövrdəki baş naziri.

qayıtdıqdan sonra, yəni hələ 1904-cü ildə "Kaspi" qəzeti ilə sıx əməkdaşlıq etmiş, 1904-cü ilin sentyabr ayının 2-dən 1905-ci il yanvar ayına qədər bu qəzetdə onun Qarabağ müxbiri kimi rus dilində 10 məqaləsi dərc etdirmişdir. Məqalələrin hamısı «Корреспонденции из Джебраилского уезда» ümumi adı altında qeyd etdiyimiz kimi rusca yazılmış və "U", ("У") imzası ilə dərc etdirilmişdir. Təbii ki, gənc müəllifin yerli müxbir kimi Cəbrayıl uyezdindən Bakıya göndərdiyi yazıların əhatə etdiyi mövzular lokal-regional xarakter daşıyırdı. Bu mövzular Şuşa uyezdinin Tuğ kəndində oğurluq, quldurluq, qətl hadisələrindən söz açır, Qarabağda zəngin ənənələri olan ipəkçilik sənətinin inkişafına maneçilik törədən problemlərdən, Şükürbəyli kəndində yayılmış vəba epidemiyasından, Cəbrayıl uyezdinin xalq təhsili sahəsində Elizavetpol quberniyasında axırıncı yeri tutmasından təəssüflə bəhs edir. Bu fakta görkəmli tədqiqatçı Qulam Məmmədli "Ədəbiyyat və İncəsənət" qəzetinin 4 yanvar 1970-ci il tarixli nömrəsindəki "Gənc Üzeyirin ilk addımları" məqaləsində toxunaraq, Üzeyir Hacıbəylinin Qarabağda, Hadrut kənd məktəbində müəllimlik etdiyi günlərdə "Kaspi" qəzetinə "U", ("У") imzası ilə Tuğ, Horadiz, Qoçəhmədli, Sərdarlı kəndlərindən xəbərlər yazdığını təsdiqləyir. Bu rus dilində yazılmış məqalələr, müəllifin digər aktual mövzulu yazıları ilə birgə artıq müstəqillik dövündə professor Şirməmməd Hüseynovun səyləri nəticəsində işıq üzü görərək, geniş oxucu auditoriyasına təqdim olunub. Beləliklə Üzeyir bəy Bakıya gəlib, müəllimlik və qəzetçilik fəaliyyətinə başlayana qədər "Kaspi" qəzetinin müxbiri kimi, boyabaşa çatdığı doğma mahalını – Qarabağı bir qələm sahibi tək sanki yenidən öyrənmiş, o dövrdə Qarabağda, ilk növbədə Şuşada meydana çıxan və təxirəsalınmaz tədbirlər tələb edən problemlər komleksinin mahiyyətinin nədən ibarət olduğunu dərindən dərk etmiş, qəzetçilik sahəsində müəyyən təcrübə qazanaraq, doğulduğu regiona yaxşı bələd olan bir jurnalist kimi Bakıda ardıcıl fəaliyyətə başlamışdır. Məlumdur ki, gənc Üzeyir Hacıbəyli 19 yaşı olarkən əmək fəaliyyətinə təyinatla Qarabağın Hadrut kənd məktəbində başlayıb. Bu faktı bütün rəsmi tarixi sənədlər, həmçinin onun həyat və yaradıcılıq yolunu araşdıran tədqiqatçılar təsdiq edir. Tədqiqatçılar bu faktı da qeyd edir ki, "Üzeyir Hacıbəyov müntəzəm pedaqoji təhsil almışdı, müəllim idi... O, 1904-cü ilin sentyabrından Hadrut kənd məktəbində müəllim işləyib, 1905-ci ildə Bakıya köçüb gəlmişdir.

"Qori müəllimlər semnariyasını bitirdikdən sonra Hacıbəyov Azərbaycanın Hadrut kəndinə müəllim təyin edilir. Orada bir il işlədikdən sonra Bakıya gəlir, burada geniş ictimai-siyasi və maarifçilik fəaliyyətinə başlayır" (1, s.7).

Bu faktı Üzeyir bəy özü də təsdiq edir. "... Bir il kənddə müəllimlik etdim. Ondan sonra Bakıya gəldim. 1905-1908-ci illər pedaqoji sahədə çalışıb, Bibiheybət rayonunda və şəhərdə müəllimlik edib, eyni zamanda redaksiyalarda çalışırdım" (2, s.24). Üzeyir bəyin təyinatı ilə bağlı rəsmi sənədlər də mövcuddur. "Yelizavetpol quberniyasının xalq məktəbləri inspektoru 1904-cü il iyul ayının 13-də 1552 nömrəli məktubla Zaqafqaziya (Qori) müəllimlər seminariyasının direktoru M.A.Miropyevə müraciət edərək, - Sizin rəhbər olduğunuz seminariyanı cari dərs ilində bitirmiş Üzeyir bəy Hacıbəyov Hadrut kənd məktəbinin ikinci paralel sinfinə müəllim təyin olunmuşdur" (3).

Beləliklə gənc mütəxəssis Ü.Hacıbəyov həmən 1904-cü ilin avqust ayının 25-dən gec olmayaraq təyinat yerinə gəlib, qeydiyyatdan keçməli idi. Bir il bir ay ötəndən sonra Hadrut məktəbinin direktorunun Yelizavetpol quberniyası ikinci rayon xalq məktəbləri inspektoruna yazdığı 10 oktyabr 1905-ci il tarixli raportundan belə məlum olur ki, "Dərslər başlamış, müəllim Üzeyir Hacıbəyov hələ də dərsə gəlməmişdir". Xalq məktəbləri inspektorunun kənd məktəbinə yazdığı cavab bir cümlədən ibarət idi – "... İşə gəlmədiyi üçün vəzifəsindən azad edilsin" (4, s.24). Üzeyir Hacıbəylinin 1905-ci ildə sentyabr ayında Hadrutda olmamasını M.Aslanov artıq xatırlatdığımız məqalədə onun o vaxt Şuşada "Otello" tamaşasına baxmağı, yəni Hadrutda deyil, Şuşada olması ilə əlaqələndirir. Qulam Məmmədlinin qeyd etdiyimiz tədqiqatında bu tamaşanın sentyabr ayında deyil, avqust ayının 22-də oynanılması təsbit olunur, o da qeyd edilir ki, Şekspirin "Otello" əsərini türk (azərbaycan) dilinə N.B.Vəzirov tərcü-

mə etmiş, Azərbaycan auditoriyası üçün nəzərdə tutulan bu tamaşanın rejissoru artist Abelyan olmuşdur. Göründüyü kimi Üzeyir bəyin əmək fəaliyyətinin ilk dövrünü əks etdirən sənədlərdə bir sıra ziddiyyətlər müşahidə olunmaqdadır. Bəs Üzeyir Hacıbəylinin kənd məktəbindəki müəllimlik fəaliyyəti belə qısa müddətli olmasının əsil səbəbi nədir? Bu barədə tədqiqatçıların rəyləri müxtəlif olsa da, bunun əsas səbəbi Qarabağda ermənilərin yerli əhaliyə divan tutması ilə bağlıdır. Məlumdur ki, XIX əsrin əvvəllərində Rus-İran müharibələri başa çatandan sonra kütləvi şəkildə Azərbaycan ərazilərinə, o cümlədən, Qarabağa köçürülmüş ermənilər buralarda oturuşandan sonra öz havadarları Çar Rusiyasının maddi və mənəvi dəstəyi ilə 1905-ci ildə yerli dinc əhaliyə, Azərbaycanlılara qarşı ilk mütəşəkkil kütləvi silahlı basqınlar törətdilər. Ermənilər gizlin-gizlin silahlanır, məxfi silah anbarları yaradır, bununla paralel olaraq, erməni kilsələri öz missionerlərinin vasitəsi ilə ardıcıl anti Azərbaycan təbliğatı aparır, müsəlman əhalisinə, islam dininə qarşı erməni gənclərinə qatı nifrət təlqin edirdilər. Ermənilərin Qafqazda yerli, avtoxton etnos olmadıqları, onların bu ərazilərə çarizm tərəfindən Rus-İran, Rus-Osmanlı müharibələri nəticəsində köçürüldükləri haqqında rus diplomatları, hərb xadimləri və tarixçi alimləri tərəfindən tərtib və təsdiq edilmiş, arxivlərdə bu gün də saxlanılan tarixi sənədlər kifayət qədərdir. Özlərini hər vəchlə Qafqazın, Azərbaycanın aborigen əhalisi kimi qələmə verən, Azərbaycan ərazilərində növbəti dəfə ötən əsrin 80-ci illərinin sonundan bizlərə qarşı daha bir amansız və qəddar etnik təmizləmə aktına rəvac verən erməni toplumu bu tarixi həqiqəti xatırlamağı, onları gündəmə gətirməyi sevmirlər. Biz yalnız rus tarixçisi S.Qlinkanin məşhur əsərindən bir nümunəni xatırladırıq: «… 9-го марта 1828 года последняя русская армия покинула Тебриз. По Туркменчайскому договору армяне из различных деревень стали двигаться в сторону Карабаха» (5, s.81). Maraqlı burasıdır ki, bu hadisəni, yəni İrandan Qarabağa kütləvi köçürməni tarixə salmaq məqsədi ilə ermənilər 1978-ci ildə Dağlıq Qarabağın Ağdərə rayonunda (keçmiş Mardaket rayonunun Marqaşen-Leninavan kəndində) bu köçürmənin 150 illiyi şərəfinə xatirə abidəsi ucaltmışdılar. Ötən əsrin axırlarında bu ərazilərdə aqressiv erməni etno-seperatizmi baş qaldırandan sonra bu abidəni ermənilər öz əlləri ilə uçurmuşlar. Çünki bu abidə yalan və iftira üzərində qurulmuş erməni təbliğatının dünya ictimaiyyətinə səylə sırımaq istədikləri yalanı – erməni etnik ünsürünün Qafqazda, Qarabağda yerli, aborigen tayfa olması haqqındakı mifi əyani şəkildə ifşa edirdi. O uzaq 1904-cü ildə, ermənilərin mülki Azərbaycan əhalisinə qarşı kütləvi qırğına hazırlaşdıqları zaman onların çoxluq təşkil etdikləri yaşayış məntəqələrinin birində - Hadrut kəndində müəllimlik etmək nəinki asan məsələ deyildi, hətta Azərbaycanlı ziyalının həyatı üçün birbaşa təhlükə törədirdi. Əməkdar jurnalist Tahir Aydınoğlunun “Xalq qəzeti”nin 13 aprel 2007-ci ildə dərc olunmuş “Üzeyir Hacıbəyliyə mollanəsrəddinçi demək olarmı?” adlı məqaləsində yazır: Üzeyir Hacıbəylinin bioqrafiyasından məlumdur ki, 1904-cü ildə Qori Müəllimlər Seminariyasını bitirib, 1 il Hadrut kənd məktəbində müəllim işlədikdən sonra o, erməni-müsəlman davası ilə bağlı fəaliyyətini ermənilər yaşayan bu məntəqədə davam etdirə bilməyib, Bakıya köçmüş, ömrünün sonunadək burada yaşamışdır (6, s.6).

**Nəticə**

*Bakıya köçəndən sonra gənc Üzeyir bəy “yağışdan çıxıb yağmura” düşmüş olduğunu tezliklə dərk edir. 1905-ci ildə Qafqazın iri sənaye mərkəzi olan Bakıda erməni irticası daha geniş miqyasda, daha mütəşəkkil surətdə həyata keçirilirdi. Təbiidir ki, bu irticanın ifşası “İrşad”da qəzetçilik fəaliyyətinə başlayan Üzeyir Hacıbəylinin siyasi publisistikasının əsas, aparıcı mövzusuna çevrilir.*

**Ədəbiyyat siyahısı:**


1. F.Köçərli. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. B., 1965.
2. Q.Məmmədli. Üzeyir Hacıbəyovun həyat və yaradıcılıq səlnaməsi (1885-1948). Bakı, Yazıçı, 1984.
3. M.Aslanov. “Bir ilin söhbəti”. Ədəbiyyat və incəsənət qəzeti, 12 aprel, 1969-cu il.
4. Q.Məmmədli. (Bax. Q.Məmmədli. Göstərilən kitab, s.24).
5. Глинка С. Описание пересечения армян азербайджанских в пределы России. Б., «Элм», 1990.
6. Üzeyir Hacıbəyov və “Molla Nəsrəddin”. Bakı, 2007.


**Юсиф Гюнайдын Багирли**

**Направление Баку-Гадрут в жизненном пути Узеира Гаджибекова**

После окончания Горийской семинарии Узейир Гаджибекова как молодой специалист был направлен в Карабах, в Гадрутскую сельскую школы для начала трудовой деятельности. Но проработал в сельской школе всего один год, после чего был вынужден покинуть Гадрут и переехать в Баку. Основной причиной этого стало агрессивный армянского етно-сеператизм охвативший город Шуша и его окресности, в том числе и село Гадрут.

***Ключевые слова:*** *Баку, Карабах, армянин, Гадрут, «Иршад», публицистика*

**Yusif Gunaydin Baghirli**

**Baku Hadrut direction in Uzeyir Hajibeyli's life path**

After his graduation from the Qory Pedagogical Seminary ,young Uzeyir,Hajibeyli , was assigned as a teacher to the village school of Hadrut in Karabakh.But his teaching activity in Hadrut lasted only a year. Recently, leaving Karabakh, Hajibeyli had to move to Baku.The main reason for this action was secretly armed armenians,starting ethnic cleansing act against local people in Shusha and its neighborhood ,including Hadrut village.

***Key words:*** *Baku, Karabakh, Hadrut,"Irshad", publicism, armenian*

Redaksiyaya daxil olma tarixi: 24.09.2019
Çapa qəbul olunma tarixi: 18.10.2019

Filologiya üzrə elmlər doktoru
**Nailə Səmədova** tərəfindən çapa tövsiyə olunmuşdur.